# Qazi jurnalist Mahal Məmmədov Ağdamda ağır döyüşləri belə yaşadı...

## ”Ölümün qoxusunu hər dəqiqə duyurdun, amma hər kəs qələbə haqda düşünürdü”

**Vətənin müdafiəsinə düşməndən öc almaq, torpaqlarımızı işğaldan azad etmək və şəhidlərimizin ruhunu sevindir-mək məqsədilə yollananlar sırasında həmkarlarımızın da xüsusi yer tutması qürurvericidir. "Bakı-Xəbər" qəzeti Zəfər yürüşündə iştirak edən, qələbənin qazanılmasında əməyi olan qazi jurnalistlərlə bağlı layihə təqdim edir. Qazi jurnalistlərə həsr etdiyimiz layihənin budəfəki qonağı həmkarımız, Futzal Federasiyasının mətbuat katibi Mahal Məmmədovdur.**



**- Mahal bəy, bir jurnalistin döyüşçüyə çevrilməsi çətin olmadı ki?**

- Döyüş jurnalistin alın yazısıdır. Bu peşə mübariz olmağı, döyüşməyi, insanların ümid yeri olmağı tələb edir. Hətta ətrafında kimsə problemlə qarşılaşan zaman sənə irad bildirir ki, jurnalist deyilsən, niyə yazmırsan...? Amma səngərdə yer almaq, ölümün qaşla-göz arasında olduğunu görmək asan deyildi. Hərbi xidmətdə 2001-2003-cü illərdə olmuşdum. Ehtiyatda olan zabit kimi təxminən 19 ay tağım komandiri vəzifəsini icra etmişdim. Yəni 2003-cü ildə tərxis olunduqdan sonra hərbi mundiri növbəti dəfə 17 ildən sonra geyinmək, illərdir alışdığın həyat tərzini dəyişmək asan deyildi. Döyüş kənardan asan görünə bilər, amma nəcə deyərlər, halva evində bişməyənə qədər şirindi, ləzizdir...Arzulayıram ki, nə müharibə olsun, nə də bundan sonra döyüşçüyə çevrilməyə ehtiyac yaransın. Çünki müharibə bəşəriyyət üçün ən dəhşətli bəladır.

Digər tərəfdən, müharibənin qoxusu artıq 2020-ci il iyulda Tovuzda baş vermiş döyüşlər zamanı duyulurdu. Həmin vaxt mən də Tovuzda idim və mümkün qədər nə iləsə əsgərlərimizə kömək etməyə çalışırdım. Şəhid dəfnində iştirak edirdik, yaralılarımıza baş çəkirdik, əsgərlərimiz üçün su, siqaret, qida, geyim və s. daşıyırdıq. Hərçənd, həmin vaxt dünya həm də bioloji müharibə - koronavirusla mübarizə aparırdı. Amma Tovuz döyüşlərindən sonra baş verənlər, görülən işlər müharibənin qaçılmaz olduğunu göstərirdi.

**- Döyüş yolunuz haralardan keçdi?**

- Sentyabrın ortalarında bir neçə dəfə səfərbərlik idarəsindən zəng vurub müəyyən dəqiqləşmələr aparırdılar və hər dəfə deyirdilər ki, şəhərdən kənara çıxmayın, sizi təlimə cəlb edəcəyik. Müharibə xəbərini yolda - radioda eşitdim. Dostum Salyana qonaq dəvət etmişdi. Plana görə, gecəni orda keçirməli idik, amma əvvəlki zənglərdən də başa düşdüm ki, zəng gələcək və gecə Bakıya qayıtdıq. Ertəsi gün qismən səfərbərlik elan olundu. Xəbəri eşitdikdən sonra hərbi biletim və şəxsiyyət vəsiqəm hazır gözləyirdim. Təxminən 11:40-da "mübarək zəng" gəldi və sentyabrın 29-da Səfərbərlik İdarəsində oldum. Oradan Göranboydakı tamamlama məntəqəsinə yollandıq. Biz ön cəbhədə yer alan ordu korpuslarının birinin ehtiyat qüvvəsi idik. Yəni aktiv döyüşlərdə şəhid olanların və yaralanaraq döyüşdən kənarlaşdırılanların yerinə aktiv fazaya həmin tamamlama məntəqəsindən hərbi vəzifəyə uyğun transferlər olunurdu. Elə hərbi formanı da Göranboyda geyindik, 3 gün sonra Bərdəyə köçdük. Bərdəyə ilk raket düşəndə biz Olimpiya Kompleksində məskunlaşmışdıq. Məqsəd də həmin məntəqəni vurmaq idi. Daha sonra bölgü ilə Ağdama yollandıq. Ağdamdakı hərbi hissənin öz döyüş tapşırığı var idi. Bilirsiniz ki, hücum cənub və şimal cəbhələrindən həyata keçirilirdi. Ağdam isə müdafiədə dayanmışdı. Bizim qüvvələr digər istiqamətlərdə hücumu intensivləşdirdikcə, düşmən də məhz Ağdam istiqamətində müdafiəni yarmağa, əsas magistral yolları bağlamaqla Füzuli istiqamətinə hərəkəti məhdudlaşdırmağa, hətta hücumda olan qüvvələrimizi mühasirəyə almağa çalışırdı. Ağdamdakı briqadanın digər tapşırığı tez-tez hücum imitasiyası etmək idi. Bu da ona görə edilirdi ki, ermənilərin ən çox canlı qüvvəsi, hərbi texnikası məhz bu istiqamətdə cəmləşmiş, mühəndis istehkam qurğuları burada qurulmuşdu. Onlar müharibə başlayacağı təqdirdə hücumu Ağdamdan gözləyirdilər. Çünki Şuşaya ən qısa yol məhz buradan başlayırdı. Bizim taktiki qruplar bu istiqamətdə tez-tez hücum imitasiyası etməklə düşmənin digər cəbhələrə kömək məqsədilə istər canlı qüvvə, istərsə də hərbi texnika göndərməsinə, onlarda bu istiqamətdən hücum olmayacağına əminlik yaranmasına imkan vermirdi. Briqadamız az qüvvə ilə işinin öhdəsindən gəldi. Niyə az qüvvə? Çünki heyətin və texnikanın bir hissəsi digər istiqamətlərə köməyə getmişdi. Müdafiədə dayanmaq asan deyildi, 30 ilə yaxındır dayandığın məkanı qarşı tərəf yaxşı tanıyırdı, illərdir kəşfiyyat məlumatları filan.... Məsafəni o qədər dəqiq hesablayırdılar ki, hətta minamyotun mərmisini səngərin içinə atırdılar. Hər gün artilleriya, minamyot atəşi... Ölümün qoxusunu hər dəqiqə duyurdun, amma hər kəs qələbə haqda düşünürdü.

Müharibənin sonuna qədər Ağdamda oldum. Dekabrın 30-da isə tərxis olunaraq yenidən ehtiyata buraxıldım.

**- Müharibə qan-qada, faciə deməkdir, hər şəhid bir qəhrəmandır, hər qazi bir tarixdir. Bir qazi kimi cəmiyyətin, dövlətin münasibətindən razısınızmı?**

- Dost-tanışlarım sağ olsun, onların hörmətini, diqqətini-qayğısını hər zaman hiss edirəm. Yaxşı ki, onlar var...

**- Məktəb vaxtı əllərini ürəklərinin üstünə qoyub "Hüququndan keçən əsgər hərə bir qəhrəman oldu" deyə himnimizi oxuyan uşaqlar böyüyüb qəhrəman oldular. O əsgərlərimizin qəhrəmanlığını ifadə etmək üçün bəlkə də kitablar bəs etməz, elə döyüş yoldaşlarınız oldumu ki, gözlərinin önündə şəhidlik zirvəsinə ucaldı? Onlar haqda nə deyərdiniz? Onların qəhrəmanlığını necə təsvir edərdiniz?**

- Əslində, mənim də məktəb illərim müharibə dövrünə düşüb. Doğulub boya-başa çatdığım Tovuz rayonu Ermənistanla həmsərhəddir. Kəndimizə hər gün aramsız "Qrad", "Alazan" mərmiləri düşürdü. Onsuz da ölkədə vəziyyət ağır idi, işıq, qaz yox idi, ərzağı talonla alırdıq - o da olanda… Bu azmış kimi, bir də taleyimizə günlərlə, bəzən həftələrlə zirzəmidə gecələmək yazılmışdı. Onlar da bilirdilər ki, sərhəd kəndlərdən mülki əhalinin böyük hissəsi arxa kəndlərə köçürülüb. Bizim kəndlə sərhəd arasında məsafə isə təxminən 10-12 km idi. Ona görə daha çox tələfat verməmiz üçün onlar bizim kəndi vururdular. Hətta atışma gedən günlərin birində sinif yoldaşımgilin (səhv etmirəmsə, 6-cı sinifdə oxuyurduq) evinə "Qrad" mərmisi düşdü və o şəhid oldu. Müharibənin nə demək olduğunu o illərdən bilirdik…Düzgün qeyd edirsiniz ki, vaxtilə məktəbdə tarix dərslərində müharibə haqda oxuyan gənclər Vətən savaşında qəhrəman oldular. O mənzərəni sözlə ifadə etməkdə, hissləri çatdırmaqda çətinlik çəkirəm. Amma döyüşmək uğrunda rəqabət apardıqlarını gördüm. Qorxmurdular, narahat olduqları məqam irəliyə getməmələri ilə bağlı idi. Adicə taktiki qruplar yaradılanda könüllülük prinsipi əsasında seçilirdi əsgərlər. Heyətə düşməyənlər arasında uşaq kimi küsənlər də var idi. Yuxarıda qeyd etdiyim kimi, Ağdamda düşmən hücumunun qarşısını alırdı, plana görə hücum fazası sonra açılacaqdı...

Hüququndan keçməyə hazır olanların çoxluq təşkil etməsi məmləkətimin ən böyük sərvətidir. Bundan böyük dəyər, bundan böyük nemət ola bilməz. İnsan həyatından dəyərli heç nə ola bilməz. Amma insan oğlu, qızı könüllü olaraq ana Vətəni - torpağı üçün canından keçməyə, sağlamlığını itirməyə hazırdırsa, deməli, müstəqilliyimiz əbədidir! Eyni zamanda, onları da dəyərləndirmək, qayğısına qalmaq, onlara da etimad göstərmək lazımdır.

**- Vətən müharibəsinin iki illiyidir. Əlbəttə, ağrı-acıları ilə yanaşı sinənənizə sığmayan böyük bir qürur daşıyırsınız. Qazandığımız qələbənin bir parçası olmaq nə deməkdir sizin üçün?**

- Deməzdim ki, müharibəni ancaq əyninə hərbi forma geyinmiş əsgərlər qazandı. Xalq olaraq, birliyimizdən yaranan güc hesabına buna nail olduq. Adətən bizi ittiham edirdilər ki, birləşə bilmirik, birlik yarada bilmirik. Amma istər Tovuz, hələ ondan əvvəl də Aprel döyüşləri zamanı bunun şahidi olduq. Vətən müharibəsi zamanı isə artıq ön və arxa cəbhə anlayışı qalmamışdı. Biz Göranboydan Bərdəyə köçürüləndə mülki insanlar yolda dəfələrlə avtobusumuzu saxladıb, su, siqaret, qida, geyim və s. doldururdular. Yolboyu insalnalrın əl eləməsi, duaları, son tikəsini hərbçilərlə bölüşməsi…Unutmayacağım günlərdir. Həqiqətən də həmin anda qəribə hisslər keçirirdim. Yəni cəmi 2-3 ay əvvəl biz bunu Tovuzda edirdik, bu gün bizim üçün edirlər. Ona görə də qələbəmizi fərdiləşdirmək olmaz. Bu savaşı Azərbaycan xalqı qazandı. Əlbəttə, həmin müddətdə əynində hərbi forma olmaq, savaşa aparan hərəkatın üzvü olmaq qürurvericidir. Bir vaxtlar babalarımız bizə İkinci Dünya müharibəsi zamanı göstərdikləri sucaətdən danışırdılar. İndi zamanla Vətən müharibəsi haqda biz danışacağıq.

Allah şəhidlərimizə rəhmət eləsin, onlar ölümləri ilə ölümsüzləşməklə yanaşı, bu torpağı bizim üçün Vətən etdilər. Qazilərimizə isə sağlam və uzun ömür arzulayırıq. İnanıram ki, Azərbaycan var olduqca onların xidməti də hər zaman qürurla xatırlanacaq.

**- Müharibədə yaşadıqlarınızın təsirindən xilas olmaq asan oldu?**

- Səhv etmirəmsə, bu fikir almanlara məxsusdur: müharibəyə gedənlərin hamısı şəhid olur.

**- Elə döyüşlər, elə hadisələr varmı ki, indi də onu yaddan çıxara bilmirsiz? Hətta onu yuxularda görürsüz?**

- Orada yaşadığın hər saatın öz xatirəsi, yaratdığı hisslər var. Əlbəttə, elə çətin günlərdə baş verənləri, başına gələnləri heç vaxt unuda bilməz insan. Bir halda ki, ölümlə burun-buruna-san. O günlərdə tanış olduğumuz, dostlaşdığımız insanlar var ki, bu gün də tez-tez zəngləşirik, görüşürük, xatirələri bölüşürük. Bir də müharibəyə yollandığımı hərbi hissədə qeydiyyata düşən zaman aşkar hiss etdim. Kadrlar idarəsində şəxsi məlumatları qeyd edir, əlaqə telefonu istəyirdilər. Başqa 2 yaxın qohumun nömrəsini də verməliydik. Səbəbini soruşdum, qeydiyyatı aparan MAXE dilləndi ki, müharibədir, ehtiyac olsa, yəni başına bir iş gəlsə, məlumat vermək üçün… Hara gəldiyimi onda anladım…

**- Hansı təltiflərə layiq görülmüsən?**

- Prezidentin sərəncamı ilə "Ağdamın azad olunmasına görə" və "Vətən müharibəsi iştirakçısı" medalları ilə təltif olunmuşam.

**- Müharibəyə getməsəydiniz özünüzü necə hiss edirsiniz?**

- Müharibədə iştirak etməyim özü Allahın bir lütfü, qismətidir. Alnımıza yazılıbsa, başımıza gəlməlidir. Tovuz döyüşlərindən sonra sual verənlər var idi ki, səfərbərlikdə qeydiyyata düşmüsən? Deyirdim ki, mən hərbi mükəlləfiyyətçi kimi zatən qeydiyyatdayam, zamanı çatanda özləri səsləyəcəklər. O zaman da sentyabrın 28-i oldu.

**- Bayrağımız azad ərazilərdə dalğalananda hansı hisslər keçirirsiniz?**

- Bir hadisə danışım. 2005-ci ildə oğlumun 1 yaşı olanda restoranda qeyd etdik. Mayın 5-dədir ad günü, həmin tarixdə boş zal tapa bilmədim, bir şadlıq evində mayın 8-də boş yer var idi. Razılaşdıq, deyilən tarixdə toplaşdıq, həmin gün xatırladım ki, böyük səhvə yol vermişəm. Əslində, işğal günləri ilə barışmırdım, amma axına qarşı da getmək olmaz. Mikrofonu götürdüm, hər kəsdən üzr istədim və kimsə özünü narahat hiss edirsə, gedə bilər, ondan inciməyəcəm, dedim. Amma onu da qeyd elədim ki, əmin olun o torpaqlar bizimdir, bizim olacaq. Şuşa azad olunanda sanki özümü dünyanın ən bəxtəvər insanı hesab edirdim. Həmin ad günü yadıma düşdü və sevindim ki, buna görə daha heç kim məni qınamayacaq. Əlbəttə, bizim olanın bizə qayıtması o yerlər üçün də xoşbəxtlikdir. Dilbər güşələrimizi hansı hala saldıqlarını görürük. Ağdamdan əsər-əlamət qalmayıb, daldalanmaq üçün bir koma belə yox idi ki, yağış yağanda ora sığınasan. Həmin yerlərin dili olsaydı, onlar nələr danışardı….

**- Müharibədə jurnalistliyiniz köməyinizə çatırdımı?**

- Şəxsi heyətlə ünsiyyət zamanı bəli, münasibət qurmaq, müsbət ortam yaratmaq üçün işə yarayırdı. Amma ora hərbi qulluqçu kimi getmişdim, ona görə də nə smartfon telefonum, nə də fəaliyyət üçün hansısa əşyam var idi. Hərbiçi mundirini geydiyim an jurnalistika yaddan çıxdı.

*İradə SARIYEVA*